**Respublika.**-2020.-15 fevral.-№35.-S.6.

# “Ermənilik” ideologiyası: tarixi-hüquqi-siyasi müstəvidə

**Ruşan Ruşanzadə**

***(əvvəli 12 və 14 fevral tarixli saylarımızda)***

Soyqırımı hadisəsi ilə əlaqədar olaraq burada qeyd edilməlidir ki, 09.12.1948-ci ildə BMT-nin Baş Assambleyasının 260 (III) A Qətnaməsi ilə qəbul olunan və 12.01.1951-ci ildən qüvvədə olan “BMT-nin Soyqırımı Cinayətinin Qarşısının Alınması və Cəzalandırılması Konvensiyası”nın II və III maddəsinə əsasən Xocalı hadisəsi soyqırımı faktıdır. Həmin maddələrdə göstərilir:

Maddə 2: Bu Konvensiyaya müvafiq olaraq soyqırımı hər hansı milli, etnik, irqi və ya dini qrupun qismən və ya bütövlükdə məhv edilməsi məqsədilə törədilən aşağıdakı hərəkətlərdən biridir:

a) belə qrup üzvlərinin öldürülməsi;

b) belə qrup üzvlərinə bədən xəsarətləri və yaxud əqli qabiliyyətinə təsir edən zərərin yetirilməsi;

c)qəsdən hər hansı bir qrupun tam və ya qismən fiziki məhvini nəzərdə tutan həyat şəraitinin yaradılması.

Maddə 3: Aşağıdakı əməlləri törədən tərəf isə cəzalandırılır:

a) soyqırımı;

b) soyqırımı törətməyə yönəlmiş gizli sövdələşmə;

c) soyqırımı törətməyə birbaşa və açıq təhrik;

d) soyqırımı törətməyə qəsd;

e) soyqırımında iştirak.

III maddə bütövlükdə Ermənistanın despot və cani rəhbərliyi ilə əvvəlcədən sövdələşən, erməni quduzlarını təhrik və himayə edən, 366-cı alayın sahibi, onun törətdiyi hadisənin məsuliyyətini daşımalı olan Rusiyaya şamil edilməlidir. Lakin qlobal iddialar, geopolitik maraqlar bunun yerinə yetirilməsinə maneə olur...

Terror və işğal əslində indiki Ermənistan kimi yaradılan dövlətə heç nə verməyib, əksinə erməni toplumu ənənəvi olaraq despotik rejimlər vasitəsi ilə siyasi monopoliyada saxlanılan sosium kimi xarakterizə edilir. Başqa sözlə, ermənilik ideologiyası regionda geopolitik təsirini saxlayan xarici qüvvələrin və dövlətlərin əlində ən əlverişli alət kimi məhz elə erməni kütləsini daima təsirdə saxlamaq vasitəsidir. Aydınlıq üçün empirik bir nümunə qeyd etmək olar. “ABŞ-da fəaliyyət göstərən “Sivil cəmiyyətlər qurumu” kimi tanınan Freedom House (Özgürlük Evi anlamında) hər il dünya ölkələrinin azadlıq və müstəqilliyini şərtləndirən vacib sahələr üzrə məruzələr və araşdırmalar dərc etdirir. Həmin araşdırmaların və məruzələrin məramı dünyada söz və mətbuat azadlığına qarşı təhdid və basqıların aradan qaldırılmasına yardım etməkdən ibarətdir. 195 ölkənin real vəziyyətini müəyyənləşdirən Freedom Housenin 2008-ci il raportunda Ermənistan bütün parametrlər üzrə müstəqil olmayan ölkələr sırasında yer almışdır”. (Yıldız Deveci Bozkuş, “Freedom House’un (Özgürlük Evi) Basın Özgürlüğü Raporunda Ermenistan”, 08 Mayıs 2008. s.9). Bu faktologiya yuxarıda deyilən hadisələri ciddi şəkildə əsaslandırır.

**6. Reallıqlar və dövlət səviyyəsində etiraf**

Hazırkı dünyada təkcə siyasi maraqlar yox, həm də dini dünyagörüşlər toqquşur. Başqa sözlə, dünyada kapital müharibəsi ilə yanaşı din müharibəsi gedir. Bütün təzyiqlər, zərbələr müsəlman ölkələrinə dəyir, istər Avropanın, istərsə də ABŞ-ın simasında heç bir xristian dövləti Azərbaycanın pozulan haqqının bərpası istiqamətində nəinki əhəmiyyətli bir addım atmayıb, əksinə, “ermənilik” ideologiyasını qidalandırmaqla məşğuldur. İllərdir Azərbaycan ictimaiyyətində belə bir fikir formalaşır ki, biz faciələrimizlə bağlı beynəlxalq aləmə lazımi məlumat çatdırmamışıq, dəqiq təəssürat yaratmamışıq, gərək daha geniş təbliğat aparaq. Əlbəttə bu zəruridir və Azərbaycan dünya ölkələrində diaspor siyasətini dinamik olaraq aparmalı və bu formatda öz faciələrini dünya ictimaiyyətinin diqqətinə yetirməlidir. Lakin bu proses (informasiya çatdırılması və dünyada Azərbaycana qarşı törədilən işğal haqqında təsəvvür yaradılması zəruri olduğu qədər də (təəssüflər olsun ki,) təsirsizdir. Bu istiqamətdəki fikirlərimi iki konkret müddəa ilə əsaslandırmağa çalışacam.

I. Erməni ictimaiyyətinin və siyasi institutlarının özləri də yaxşı bilirlər ki, əlləri qana batıb və qəsbkar olaraq Azərbaycan torpaqlarını işğal altında saxlayırlar. Bu reallığın ifadəsi olaraq 2015-ci ilin Aprel döyüşləri ərəfəsində dövlətin qanunverici hakimiyyətini təmsil edən Ermənistan Parlamentinin vitse-spikeri Nağdalyanın Parlamentdəki çıxışının stenoqramını təqdim edirəm:

“Dağlıq Qarabağla və hazırda nəzarətimizdə olan torpaqlarla bağlı yanlış təsəvvürlərə qapılmaq gərək deyil. Bu yanlışlıq bizə çox baha başa gələ bilər. Necə ki, gəlir... Hazırda əlimizə keçirdiyimiz Azərbaycan torpaqlarını nə zamansa geri qaytarmalıyıq, oradan çəkilməliyik. Reallığı anlamaq gərəkdir. Serj Sarkisyan zənn edir ki, vaxt uzatmaqla nəyəsə nail olacaqdır. Amma mən və üzvü olduğum partiya belə düşünmür. İstər beynəlxalq müstəvidə, istərsə də daxildə aparılan danışıqlar mənasızdır. Ya torpaqları qaytarmalıyıq, ya da qan tökdüyümüz torpaqlarda qanımızı töküb alacaqlar.

Yeni müharibə regional fəlakət olacaq və həm Rusiya, həm də Qərbdən təzyiqlərə İrəvan davam gətirməyəcək. Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlarda dalan situasiyanın yaranmasına az qalıb. Dağlıq Qarabağın gələcəyi və status ilə bağlı referendum keçiriləndə, yəni statusla bağlı qərar qəbul olanda və dünya birliyinin də Qarabağlı ermənilərin dövlət müstəqilliyini tanıması üçün konkret addımlar atmağa başlayanda deməliyik ki, hüququmuz olmayan torpaqları istəmirik. İndi əlimizdə, nəzarətimizdə olan o torpaqlara heç bir hüququmuz yoxdur.

Yenə deyirəm, qaytarın bu torpaqları. Siz düşünün ki, bizim uzatdığımız bu məsələ yalnız lider dövlətlərin Cənubi Qafqaza olan marağı yalnız Azərbaycanın xeyrinə olacaq. İndi beynəlxalq aləmdə işğalçı dövlət kimi tanınırıq. Zənnimcə bir millət olaraq gələcəyimizi təhlükə altına atırıq...".

Bununla yanaşı digər bir məqamı, "ermənilik" ideologiyasının hazırkı himayədarı Rusiyanın nümayəndələrindən birinin açıqlamasını xatırladıram. Belə ki, Ermənistanda Rusiyaya qarşı mitinqlər başlayanda "REQNUM" informasiya agentliyinin baş redaktoru, Kremlə və ermənilərə yaxınlığı ilə seçilən Modes Kalero geniş ictimaiyyət və media qarşısında çıxış etmişdir. Həmin çıxışın stenoqramı aşağıdakı kimidir.

"Ermənilər unutmamalıdırlar ki, əgər Rusiya olmasaydı onları öz qonşularından heç kim qorumazdı. XVIII əsrdəki böyük rus döyüşçüləri ilə məmurları sayəsində onlar artıq dövlət və paytaxta sahibdirlər. Onlar Suriya çöllərində yaşaya-yaşaya üzüm yarpaqlarına qiymə doldurub bükə bilməzdilər. Belə ki, orada nə üzümü, nə də qiyməni bilirdilər. Bunun əvəzində isə çörək bişirmək üçün yanacaq kimi istifadə ediləcək dəvə peyini bol idi. Deputat Jirinoviski havayı yerdən ermənilərə deməmişdi ki, "rus qazı ermənilərin xoşuna gəlmirsə qoy onda onlar gedib peyin yandırsınlar".

1970-ci illərdə ermənilər İrəvanın tarixindən türk izlərini silmək üçün "Sərdar sarayı"nı dağıtdılar. Bir xalqın tarixini ədəbiyyat nümunələri ilə müəyyən edirlər. Amma ermənilərdə bu sadəcə yoxdur.

Öz mətbəxlərini isə tamamilə türk və azərbaycanlılardan götürərək hətta adlarını belə dəyişməyərək - lüləkabab, basdırma, bozbaş, dolma, kabab, düşbərə, piti kimi eyni saxlayıblar. Tarixi sənədlərdən də göründüyü kimi İrəvanın sadəcə beş yüz yaşı var. Və o, 1918-ci ildə məhz Rusiyanın köməkliyi ilə Ermənistanın paytaxtı olub. Buna qədər isə həmin ərazi İrəvan xanlığının mərkəzi idi.

Tarix isə hələ də heç bir erməni imperiyası tanımır. Əgər 1918-ci ilə qədər Qafqazda bir erməni dövləti olubsa, o zaman onun hara itib-batmasından tarixçilər indiyədək niyə baş çıxara bilmirlər. Onlar XIX əsrdə meydana çıxan Xaçatur Abovyana qədər heç bir yazıçıya da sahib olmayıblar. Yüz illər ərzində xalqı idarə edənlər onun başına yerləşdiriblər ki, biz ən qədim ağıllı xalqıq. Amma özləri Ermənistandan qaçaraq sərhədləri isə ruslardan qorumağı xahiş edirlər. Rusiyada isə əlyazmalar yanmır. Bunu ermənilərə daima xatırlatmaq lazımdır ki, bir daha dünyanı özlərinə güldürməsinlər..."

II. Dünyanı idarə edən qüvvələr, onların kəşfiyyat mərkəzləri və agentura şəbəkələri dünya hadisələrindən olduqca məlumatlıdır. Məsələn, XXI əsrdə ABŞ-ın imperiya konsepsiyasını beyinlərə hopdurmağa çalışan, demokratiyadan, insan haqlarından dəm vuran ABŞ rəhbərliyinin Milli Təhlükəsizlik üzrə müşaviri və Mərkəzi Kəşfiyyat Orqanlarına nəzarətlə məşğul olmuş Z. Bjezinski Qarabağ və Xocalı faciəsinin xırda detallarına qədər bilir, lakin bir dəfə də olsun dilə gətirməyib. Yaxud da ABŞ prezidentləri 28 il öncə baş verən Xocalı soyqırımını qulaqardına vuraraq erməni lobbilərinin maraqlarına xidmət olaraq (uydurma olduğunu bilərək) "genosid" terminindən istifadə etməyə çəkinsə də, guya bir əsr öncə baş vermiş, həqiqətdə isə heç bir əsası olmayan qondarma "erməni qırğınından danışırlar...

Maraqlıdır ki, 1987-ci ilin yanvarında ABŞ prezidenti C. Karterin sabiq köməkçisi Z. Bjezinski "Vaşinqton Tayms" qəzetinə verdiyi müsahibədə "Şər imperiyası" adlandırdığı SSRİ-nin gələcəyi ilə bağlı demişdir: "Gələcək 20-30 ildə dünyada milli və etnik münaqişələrin mərkəzi Sovet ittifaqı olacaqdır. Burada millətçilik canlı dinamik qüvvəyə çevriləcəkdir. Sovetlər öz millətlərinin problemini nəzarətdə saxlaya bilməyəcəklər. Onların sistemi ölümcül böhran ərəfəsindədir". Siyasi analitik baxımdan burada həm də, görünməyən bir həqiqət mövcuddur. Z. Bjezinski özü də bilmədən, ABŞ-ın (bəlkə də bilərəkdən) Sovet İttifaqına qarşı olan xarici siyasi strategiyasını faş edir və planlarını dilə gətirirdi. Çünki onun danışığındakı "etnik münaqişələr" ifadəsi xüsusən diqqətçəkəndir. Bir neçə il sonra Z. Bjezinskinin dünyada baş vermiş qlobal dəyişikliyə həsr olunan "Möhtəşəm iflas: XX əsrdə kommunizmin doğulması və məhvi" adlı kitabı nəşr edildi. Bu kimi digər məsələləri çox göstərmək olar.

Yuxarıda göstərilən iki müddəa isbat edir ki, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətindən və törətdiyi qətliamlardan, Xocalı soyqırımından dünya bixəbər deyil... Lakin bununla belə, "dünya başbilənlərinin" hadisəyə hansı maraqlar kontekstindən yanaşmaları ayrı bir problemdir. Azərbaycan diplomatiyası ilə yanaşı, qan qardaşı olan Türkiyə diplomatiyası BMT-nin tribunasından cəsarətlə Qarabağ məsələsini önə çəkir. Həmçinin, dost, qardaş Pakistan "ermənilik" ideologiyasını məhkum etməklə Ermənistanı heç dövlət olaraq tanımır.

Öz haqqı uğrunda mübarizə edən bir milləti yaralamaq olar, lakin onun qələbə əzmini sındırmaq olmaz. Bu gün, sülhün yeganə real yolu yalnız döyüşmək, ədaləti bərqərar etməkdir!